18 (1273) 12-17 may 2023-cü il

HEYDƏR ƏLİYEV 100

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

# QÜRURLA ANIRIQ



Müasir müstəqil Azərbaycanın memarı və qurucusu, dünyaşöhrətli siyasi xadim Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü tamam olub. Əlamətdar yubiley Bakıda, bölgələrdə, o cümlədən Şuşada, eləcə də xarici ölkələrdə geniş qeyd edilib.

Mayın 10-da Ulu Öndərin Fəxri xiyabandakı abidəsi önündə böyük izdiham yaşanıb, əziz xatirəsi dərin ehtiramla anılıb. Səhər saatlarından başlayaraq axşamadək müxtəlif idarə və müəssisələrin, təhsil ocaqlarının kollektivləri, hərbçilər, Qarabağ müharibəsinin veteranları, paytaxt sakinləri Fəxri xiyabana gələrək Ulu Öndərin məzarını ziyarət edib, xatirəsini ehtiramla anıblar. Məzar və abidə önünə təzə-tər güllər düzülüb, əklillər qoyulub. Dahi şəxsiyyətin Vətən qarşısında misilsiz xidmətləri bir daha minnətdarlıq duyğuları ilə xatırlanıb.

Müasir tariximizin bütöv bir qərinəsi Ulu Öndərin adı ilə bağlıdır. O, bütün ömrünü canından çox sevdiyi Azərbaycanın inkişafına, doğma xalqının rifahına həsr edib. Heydər Əliyev həyatda olmasa da, bu gün mənən xalqı ilə birlikdədir. Onun zəngin irsi, əbədiyaşar ideyaları yollarımızı işıqlandırır.

Xalqımız Azərbaycanın bugünkü dinamik inkişafına, qüdrətli, dünyada sayılıb-seçilən, qalib ölkəyə çevrilməsinə görə özünü Heydər Əliyevə borclu sanır. Fəxri xiyabanda yaşanan izdiham da Azərbaycan xalqının öz böyük oğluna vəfa borcunun ifadəsi idi.

Fəxri xiyabandakı izdiham bir daha göstərdi ki, Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi qəlblərdə daim yaşayacaq.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Ulu Öndərin məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəliblər.

Prezident İlham Əliyev, Birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Ümummilli Liderin xatirəsini dərin hörmətlə yad ediblər.

# "AZƏRBAYCAN HEYDƏR ƏLİYEVİN XATİRƏSİNƏ BÖYÜK HÖRMƏTLƏ YANAŞIR"



"Bu gün Azərbaycan Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyini qeyd edir. Azərbaycan öz böyük oğlunun xatirəsinə böyük hörmətlə yanaşır".

Bunu Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Şuşadan Azərbaycan xalqına müraciətində deyib.

Dövlətimizin başçısı imzaladığı Sərəncamla 2023-cü ilin Azərbaycanda "Heydər Əliyev İli" elan olunduğunu vurğulayaraq bildirib ki, ilin əvvəlindən bu günə qədər və ilin sonuna qədər həm ölkəmizdə, həm də müxtəlif ölkələrdə bir çox tədbirlər keçiriləcək.

# "ŞUŞA ZƏFƏRİMİZİN RƏMZİDİR, ŞUŞA ZƏFƏRİMİZİN TACIDIR"

"Mən bu təbrik müraciətimi Bakıdan da edə bilərdim. Amma hesab etdim ki, mən bu gün burada olmalıyam, Şuşada olmalıyam, bu binanın önündə olmalıyam".

Bunu Prezident İlham Əliyev Azərbaycan xalqına müraciətində deyib.

"Şuşa Zəfərimizin rəmzidir, Şuşa Zəfərimizin tacıdır. Şuşa işğaldan azad olunanda, bax, bu meydanda qəhrəman Azərbaycan hərbçiləri mənə Şuşanın azad olunması ilə bağlı raport vermişlər. Bu binanın damında Azərbaycan Bayrağı qaldırılmışdır və Şuşanın azad olunması bizim tarixi Zəfərimizin əsas hissəsi idi... Ondan bir gün sonra Ermənistan kapitulyasiya aktına imza atmışdır. Ulu Öndər Heydər Əliyevin ən böyük arzusu Şuşanı, Qarabağı və Zəngəzuru azad görmək idi. Biz onun və bütün Azərbaycan xalqının, bütün dünya azərbaycanlılarının arzusunu çin etdik", - deyə Azərbaycan Prezidenti bildirib.

# "HEYDƏR ƏLİYEV AMİLİ AZƏRBAYCANI BİR ÇƏTİR KİMİ QORUYURDU"

Bunu Prezident İlham Əliyev Azərbaycan xalqına müraciətində deyib.

Ulu Öndər Heydər Əliyevin siyasi fəaliyyətdən kənarda qaldığı illərdə də hər zaman Azərbaycanın maraqları ilə yaşadığını, ürəyinin Azərbaycanla bir döyündüyünü vurğulayan dövlətimizin başçısı bildirib: ***"Heydər Əliyev xalqımız üçün ağır günlərdə - 20 Yanvar faciəsindən sonra yenə də xalqımızın haqq səsini dünyaya məhz o çatdırmışdır. Yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək öz haqq səsini ucaltmış, sovet hökumətinin, Sovet İttifaqının rəhbərliyinin bu qanlı əməlini pisləmiş və bu qırğınla bağlı dünyaya bəyanat vermişdir. Mən onun yanında idim, o günü yaxşı xatırlayıram, həm faciəvi gün idi, eyni zamanda, qürurverici bir gün idi. Moskvada yaşayan azərbaycanlılar daimi nümayəndəliyin önünə toplaşmışdılar və Heydər Əliyev binaya yaxınlaşanda sanki bir canlı dəhliz açılmışdı. Baxmayaraq ki, o, bütün vəzifələrdən çıxarılmışdır, ona qarşı Azərbaycanda ovaxtkı rəhbərlik tərəfindən çirkin kampaniya aparılırdı, sovet mətbuatında da çirkin kampaniya aparılırdı, ancaq Azərbaycan xalqının qəlbində o, daim böyük lider kimi yaşayırdı".***

Heydər Əliyevin gələcək fəaliyyəti üçün Naxçıvan dövrünün böyük əhəmiyyəti var. Xalq məhz onu özünə rəhbər seçdi, bu, demokratiyanın əsl təntənəsi idi. Azərbaycan hakimiyyətinin - həm kommunist, həm də "demokrat" hakimiyyətinin hər vəchlə Heydər Əliyevin Naxçıvandan uzaqlaşdırılmasına çalışdıqlarını vurğulayan dövlətimizin başçısı deyib: ***"Naxçıvan deməK olar ki, blokadada boğulurdu, onlar isə Naxçıvana qarşı təxribatlar törədirdilər, desant göndərirdilər, çevrilişə cəhd edirdilər. Sanki istəyirdilər ki, Naxçıvan da işğal altına düşsün. Ancaq xalq buna imkan vermədi, öz lideri ətrafında sıx birləşmişdir və bir daha demək istəyirəm, məhz Heydər Əliyevin qətiyyəti, fəaliyyəti nəticəsində Naxçıvan torpaqları erməni işğalına məruz qalmadı".***

# "AZƏRBAYCAN XALQI HEYDƏR ƏLİYEVİN SİMASINDA GÜCLÜ LİDER SEÇDİ VƏ YANILMADI"

"Sabitlik inkişaf üçün, təhlükəsizlik üçün əsas şərtdir. Hər kəs bunu Azərbaycanın timsalında əyani şəkildə gördü ki, sabitlik olan yerdə əmin-amanlıq da var, inkişaf da var".

Bu sözləri Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycan xalqına müraciətində deyib.

Sabitlik üçün güclü liderin lazım olduğunu bildirən dövlətimizin başçısı qeyd edib: "Azərbaycan xalqı Heydər Əliyevin simasında güclü Lideri seçərək, öz taleyini ona etibar etdi və yanılmadı. Azərbaycan xalqı müdrik xalqdır, dəfələrlə ən çətin anlarda, ən çətin dövrlərdə yeganə düzgün müdrik qərar qəbul etmişdir. Daxili və xarici düşmənlər də başa düşürdülər ki, Azərbaycan artıq inkişaf yoluna qədəm qoyub. Onlar öz çirkin əməllərindən əl çəkmək fikrində deyildilər".

"Əsrin kontraktı" imzalanandan iki həftə sonra Azərbaycanda dövlət çevrilişinə cəhd edildiyini bildirən dövlətimizin başçısı deyib: ***"Yenə də Heydər Əliyev amili, xalqın ona inamı bu cəhdin qarşısını aldı. Yüz mindən çox insan Azadlıq meydanına toplaşaraq öz Liderinə dəstəyini göstərdi və hərbi çevrilişdə əli olan ünsürlər pərən-pərən oldular".***

# "HEYDƏR ƏLİYEV NEFT STRATEGİYASI BU GÜN İMKAN VERİR Kİ, BİZ QARABAĞI, ZƏNGƏZURU YENİDƏN QURAQ"




"Heydər Əliyev neft strategiyası bu gün imkan verir ki, biz inkişaf edək, imkan verir ki, biz Qarabağı, Zəngəzuru yenidən quraq".

Bu sözləri Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycan xalqına müraciətində söyləyib.

"1994-cü ildə "Əsrin kontraktı", 1996-cı ildə "Şahdəniz" qaz-kondensat yatağı üzrə imzalanmış kontrakt bizim bugünkü iqtisadi qüdrətimizi şərtləndirən əsas amildir", - deyən dövlətimizin başçısı əlavə edib ki, bu gün Azərbaycan qazı nə qədər böyük önəm daşıyır, bunu hər kəs görür.

1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin kontraktı" növbəti bir dönüş nöqtəsi idi. İndi Azərbaycan dövlətinin payına düşən mənfəət neftinin 75 faizi bu gün bizim iqtisadiyyatımızı gücləndirir.

Dövlətimizin başçısı deyib ki, Azərbaycan dövləti "Əsrin kontraktı"nın icrasına bir manat sərmayə qoymayıb. Ancaq mənfəət neftinin 75 faizi Azərbaycana gəlir. ***"Bu gün xarici şirkətlərlə aparılan neft-qaz əməliyyatları çərçivəsində minlərlə milli kadr yetişib. Bu gün "Əsrin kontraktı"nın icrasında işləyən insanların 90 faizi Azərbaycan vətəndaşlarıdır",*** - deyə Azərbaycan Prezidenti qeyd edib.

# "BU GÜN AZƏRBAYCAN AVRASİYADA NƏQLİYYAT MƏRKƏZLƏRİNDƏN BİRİNƏ ÇEVRİLİB"

Bunu Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycan xalqına müraciətində deyib.

Məhz Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda Avropa-Qafqaz-Asiya Beynəlxalq Nəqliyyat Dəhlizinə dair çox böyük və mötəbər beynəlxalq konfrans keçirildiyini xatırladan dövlətimizin başçısı bildirib: "Məhz o illərdə bu gün "Orta Dəhliz" dediyimiz layihənin bünövrəsi qoyuldu – Avropa-Qafqaz-Asiya. Yəni, bu dəhlizin Azərbaycan ərazisindən keçməsi o illərdə şərtləndirildi".

# "Azərbaycan sabitlik adasıdır, təhlükəsizlik adasıdır"

"Müstəqillik ən böyük nemətdir, ən böyük sərvətdir. Bu gün biz bütün azərbaycanlılar qürur hissi ilə qeyd edirik ki, biz sözün əsl mənasında, müstəqil ölkə kimi yaşayırıq". Bu fikirləri Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycan xalqına müraciətində səsləndirib. Azərbaycanda təhlükəsizliyin təmin edildiyini, əmin-amanlıq hökm sürdüyünü vurğulayan dövlətimizin başçısı deyib: ***"İndi dünyanın hər bir yerində müharibələr, toqquşmalar, qarşıdurmalar hökm sürür, hər gün biz bunu görürük. Azərbaycan sabitlik adasıdır, təhlükəsizlik adasıdır. Bu da böyük sərvətdir və Azərbaycan xalqı bunu yaxşı bilir. Çünki biz müstəqilliyimizin ilk illərində çətin günlər yaşamışdıq".***

# "İkinci Qarabağ müharibəsindəki Zəfər Azərbaycan durduqca qalacaq"

"İkinci Qarabağ müharibəsindəki Qələbə isə bizim tarixi uğurumuzdur, tarixi Zəfərimizdir. Bu Zəfər Azərbaycan durduqca qalacaq, bizim qəlbimizdə, yaddaşımızda, kitablarda, əsərlərdə". Bu fikirləri Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycan xalqına müraciətində səsləndirib. Dövlətimizin başçısı deyib ki, bu, qəhrəmanlıq dastanıdır, bu, misli görünməmiş qəhrəmanlıqdır. ***"İkinci Qarabağ müharibəsi bütün dünyaya Azərbaycan xalqının əyilməz ruhunu göstərdi. Bizi qabağa aparan məhz bu idi"***, - deyə Azərbaycan Prezidenti əlavə edib.

# XİN: Vəziyyətin qəsdən gərginləşdirilməsinə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür

Ermənistan Respublikası sərhədyanı bölgələrdə Azərbaycana qarşı hərbi təxribatlarını artırır.

Bu barədə Ermənistan tərəfindən növbəti hərbi təxribatlar barədə mətbuat məlumatında bildirilib.

Qeyd edilib ki, Azərbaycan Respublikası Müdafiə Nazirliyi tərəfindən verilmiş məlumata əsasən, mayın 10-u axşam saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Zod istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun üzbəüz mövqelərini müxtəlif növ atıcı silahlardan intensiv atəşə tutmaqla qəsdən təxribat törədib və bu təxribat nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçusu ağır yaralanıb. Ermənistan tərəfinə təxribatlarına son qoyulması və qəsdən vəziyyətin gərginləşdirməməsi barədə xəbərdarlıq edilməsinə baxmayaraq, mayın 11-i səhər saatlarından etibarən Ermənistan silahlı qüvvələri vəziyyəti daha da gərginləşdirərək Azərbaycan Ordusunun mövqelərini minaatanlardan atəşə tutub, təxribatlar nəticəsində bir nəfər hərbi qulluqçumuz həlak olub.

Ermənistanın təxribatlarının hər zaman olduğu kimi sülh sazişi üzrə danışıqların intensivləşdiyi, eləcə də liderlər arasında gözlənilən danışıqlar fonunda baş verməsi Ermənistanın sülh prosesində maraqlı olmadığını göstərir. Ermənistanın danışıqlar prosesinə xələl gətirən bu kimi əməlləri ciddi formada beynəlxalq ictimaiyyət tərəfindən rədd edilməli və qınanılmalıdır.

Ermənistanın təxribatlarının qarşısını almaq məqsədilə Azərbaycan Respublikasının Silahlı Qüvvələri bütün lazımı tədbirləri görür.

Vəziyyətin qəsdən gərginləşdirilməsinə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

# Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşaya səfər ediblər

**Şuşa. 8 may 2023-cü il.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Əhmədbəyli-Füzuli-Şuşa magistral avtomobil yolunun 66-81-ci kilometrliyində görülən işlərlə tanış olublar.

Dövlətimizin başçısının tapşırığına əsasən, Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınaraq, dörd hərəkət zolaqlı olmaqla 1b texniki dərəcəyə uyğun inşa edilir.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Daşaltı kəndində Zarıslıçay nasos stansiyasının açılışında iştirak ediblər.

**Şuşa. 9 may 2023-cü il.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərişıq" ASC-nin Şuşa Elektrik Şəbəkələrinin İnnovativ Texnologiyalar Mərkəzinin açılışını edib.

Şuşa şəhərinin ənənəvi elektrik təchizat şəbəkəsi rəqəmsal xəritə sisteminə köçürülərək planlama və ölçmə işlərinin aparılması təmin ediləcək.

Elektrik Şəbəkələrinin İnnovativ Texnologiyalar Mərkəzi yeni yaradılan dairəvi təchizat sxeminin tərkib hissəsi kimi layihələndirilib.

***

Şuşada Atatürk küçəsinin lövhəsinin açılışı olub, Şuşa şəhərinin Qarabağ küçəsində inşa olunacaq qeyri-yaşayış binasının təməli qoyulub.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şuşada Molla Pənah Vaqif və Pənahəli xan küçələrinin kəsişməsində lövhələrin açılışında iştirak edib.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Cıdır düzündə Mir Möhsün Nəvvab Qarabağinin Heydər Əliyev Fondu tərəfindən bərpa olunan məzarını ziyarət edib. Bildirilib ki, XIX əsrin Azərbaycana bəxş etdiyi görkəmli simalardan, şəxsiyyətlərdən biri, şair, rəssam, xəttat, musiqi nəzəriyyəçisi, Qarabağ ədəbi mühitinin inkişafında özünəməxsus rolu olmuş ensiklopedist alim Mir Möhsün Nəvvab Qarabağinin Şuşa şəhərindəki məzarı və qəbirüstü abidəsi bərpa olunub.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra Mehmandarovların malikanə kompleksinin açılışında iştirak ediblər. Mehmandarovların malikanə kompleksi Mehmandarov nəslinin nümayəndələri tərəfindən XVIII əsrdə inşa olunub. Yaşayış kompleksinə böyük yaşayış binası, kiçik yaşayış binası, ailə məscidi və bulaq daxildir.

Görülmüş işlərdən sonra malikanə kompleksində muzey ekspozisiyası qurulub. "Qarabağ zadəganının evi" mövzusundakı ekspozisiya tərtib edilərkən XIX əsrin sonu – XX əsrin əvvəllərində Qarabağ zadəganının evinin interyeri, ziyalı şəxsin həyat tərzinin xüsusiyyətləri əsas götürülüb.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Xüsusi nümayəndəliyin inzibati binasının qarşısındakı meydanda olublar.

**10 May 2023-cü il.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Şuşa şəhərində 23 binadan ibarət yaşayış kompleksində aparılan tikinti işlərinin gedişi ilə tanış olublar.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Şuşa şəhərində 17 binadan ibarət 2-ci yaşayış kompleksinin təməlinin qoyulması mərasimində iştirak ediblər.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Şuşa Otel-Konqres Mərkəzi Kompleksinin açılışında iştirak ediblər. Təməli 2021-ci il avqustun 29-da Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulan Şuşa Otel-Konqres Mərkəzi Kompleksi şəhərin mərkəzində - Zəfər yolunun üzərində yerləşir. 2022-ci ildə - "Şuşa İli"ndə Karvansaray konsepti əsas götürülən layihənin inşasına başlanılıb.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Şuşa şəhərində Dövlət Xidmətləri Mərkəzinin yenidənqurma və təmir işlərinə başlanılması ilə bağlı tədbirdə iştirak ediblər.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Şuşada Yaradıcılıq Mərkəzinin və Saatlı məscidinin Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra açılışında iştirak ediblər.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Şuşada Yuxarı Gövhər Ağa məscidinin əsaslı yenidənqurma və bərpa işlərindən sonra açılışında iştirak ediblər.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Milli Xalça Muzeyinin Şuşa filialının açılışında iştirak ediblər. Hazırda Şuşada yeni xalça ekspozisiyası təqdim olunur. Dövlətimizin başçısı, birinci xanım və ailə üzvləri muzeydə sərgilənən eksponatlar və sənət əsərləri ilə tanış olublar.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Dəmir Yumruq küçəsinin lövhəsinin açılışında iştirak ediblər.

# "Son 20 ildə Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə yoxdur"

"İqtisadi inkişafa gəldikdə, son 20 ildə dünya miqyasında Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə yoxdur. İqtisadiyyatımız 3 dəfədən çox artmışdır".

Bu fikirləri Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycan xalqına müraciətində ifadə edib.

Valyuta ehtiyatlarımızın 65 milyard dollara çatdığını, valyuta ehtiyatlarımızın xarici borcu təxminən 10 dəfə üstələdiyini söyləyən dövlətimizin başçısı deyib ki, biz heç kimdən asılı deyilik, biz heç kimin işinə qarışmırıq. Amma heç kimə imkan vermirik və verməyəcəyik ki, öz burnunu bizim işimizə soxsun, istər siyasi məsələlər olsun, istər Azərbaycan-Ermənistan məsələləri olsun, istər Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağ olsun.



# Prezident İlham Əliyev Azərbaycan veteranlarını təbrik edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tviter hesabında 9 May - Qələbə Günü ilə bağlı paylaşım edib. Paylaşımda qeyd olunub: "9 may – II Dünya müharibəsində faşizm üzərində qələbə münasibətilə Azərbaycan veteranlarını təbrik edirəm!".**

# SOCAR ilə "Total Energies" arasında uğurlu əməkdaşlıq davam etdirilir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 11-də "Total Energies" şirkətinin kəşfiyyat və hasilat üzrə prezidenti Nikolas Terrazı qəbul edib.

Görüşdə SOCAR ilə "Total Energies" arasında uzun illər ərzində uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi. "Abşeron" qaz yatağında yaxın aylarda nəzərdə tutulan hasilatın başlanılması məsələsi müzakirə olundu.

Nikolas Terraz "Total Energies" şirkətinin Azərbaycanla əməkdaşlığa sadiqliyini və davamlı marağını vurğulayaraq, ölkəmizdəki fəaliyyətlərini genişləndirmək niyyətində olduqlarını bildirib.

Söhbət zamanı ənənəvi neft və qaz sahəsində əməkdaşlıqdan əlavə bərpa olunan enerji istehsalı sahəsində də mümkün layihələr barədə fikir mübadiləsi aparılıb.

# Tbilisidə "Heydər Əliyev – Gürcüstan 100" kitabının təqdimatı keçirilib




Mayın 10-da Tbilisidə Azərbaycan və gürcü dillərində nəşr olunan "Heydər Əliyev – Gürcüstan 100" kitabının təqdimatı keçirilib.

Təqdimat mərasimində Azərbaycanın səfiri Faiq Quliyev, Türkiyənin səfiri Ali Kaan Orbay, Gürcüstan parlamenti sədrinin müavinləri Qia Volski, Arçil Talakvadze, deputatlar və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Səfir Faiq Quliyev çıxış edərək bildirib ki, Ulu Öndərin 100 illik yubileyinə həsr olunmuş kitabda xronoloji faktlar, siyasətçilərin fikirləri xüsusi yer alıb.

Əsərdə Azərbaycan Respublikasının xarici siyasətinin tərkib hissəsi kimi onun qonşu dövlətlərlə, bu sırada Gürcüstan ilə münasibətləri diqqəti xüsusilə cəlb edir. Ümummilli Lider Heydər Əliyevin məqsədyönlü xarici siyasəti nəticəsində Azərbaycan-Gürcüstan münasibətlərinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğu qeyd olunub.

Parlament sədrinin müavini Arçil Talakvadze çıxışında deyib ki, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdışından sonra ölkələrimiz arasındakı münasibətlər yeni müstəvidə inkişaf edib və bu gün strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.

Türkiyənin səfiri Ali Kaan Orbay isə bildirib ki, bu gün bütün türk dünyası gözəl bir bayramı - fenomen şəxsiyyət, dünya şöhrətli Heydər Əliyevin 100 illik yubileyini qeyd edir. Heydər Əliyevin adı əsrlər boyu xalqlarımızın yaddaşından silinməyəcək və daim ehtiramla xatırlanacaq. Heydər Əliyevin siyasi irsi gələcək nəsillər üçün əsl örnək olaraq qalacaq.

# Azərbaycanda BMT-nin İnkişaf Təşəbbüslərinin həyata keçirilməsində Heydər Əliyevin rolu




***Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar keçirilən və Azərbaycanda BMT-nin inkişaf təşəbbüslərinin həyata keçirilməsində Ümummilli Liderin roluna həsr olunmuş tədbirdə Ulu Öndərin Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin möhkəmləndirilməsi istiqamətində atdığı addımlar, regional və qlobal enerji layihələrində ölkəmizi etibarlı tərəfdaş olaraq tanıtması, beynəlxalq təşkilatlarla, xüsusilə BMT-nin ixtisaslaşmış qurumları ilə əlaqələrin yaradılması və möhkəmləndirilməsi istiqamətində misilsiz fəaliyyəti vurğulanıb.***

2023-cü ildə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 ilinin tamam olması ilə əlaqədar İqtisadiyyat Nazirliyində "Azərbaycanda BMT-nin inkişaf təşəbbüslərinin həyata keçirilməsində Heydər Əliyevin rolu" mövzusunda Konfrans keçirilib.

### "Azərbaycan son 30 ildə sürətlə inkişaf edən ölkələrdən biridir"




"Ulu Öndər Heydər Əliyevin xalqımız qarşısında misilsiz xidmətləri var. Heydər Əliyev müstəqil Azərbaycan dövlətini qurarkən onun bir neçə xüsusi dəyərləri, hesab edirəm ki, indiki dünyanın qəbul etdiyi dəyərləri mənimsəməsi baxımından xüsusi əhəmiyyət kəsb edirdi".

Bu barədə **Baş nazirin müavini Əli Əhmədov** mayın 11-də keçirilən "Azərbaycanda BMT-nin İnkişaf Təşəbbüslərinin həyata keçirilməsində Heydər Əliyevin rolu" mövzusunda tədbirdə deyib.

"Heydər Əliyev böyük müdrikliyə və təcrübəyə malik olduğundan öz ölkəsini qurarkən demokratiya yolunu təsadüfən seçməyib. Ümummilli Lider Heydər Əliyevin qarşıya qoyduğu əsas məqsədlərdən biri də Azərbaycanın beynəlxalq inteqrasiyasının təmin edilməsi idi. Azərbaycan BMT-nin bir sıra layihələrində yaxından iştirak edir. Hesab edirəm ki, bütün bunlar ölkəmizin hörmət və nüfuzunun, eləcə də iqtisadi potensialının artmasına töhfə verir. Azərbaycan son 30 ildə sürətlə inkişaf edən ölkələrdən biridir.

Heydər Əliyevin müəyyənləşdirdiyi yol bu gün də Azərbaycan cəmiyyətində qəbul edilir", - deyə Ə.Əhmədov qeyd etmişdir.

### "Bugünkü uğurlarımızın əsasında Ulu Öndərin müstəsna xidmətləri dayanır"

"Xalqımızın Ümummilli Lideri, müasir, müstəqil dövlətimizin qurucusu Heydər Əliyev Azərbaycan tarixində ən yüksək yer tutan böyük şəxsiyyətlərdən biridir. Hamımız onun müasir Azərbaycan dövlətinin formalaşmasında, ölkəmizin sosial-iqtisadi inkişafında misilsiz xidmətlərini dərin rəğbətlə xatırlayırıq".

**Bu fikirləri tədbirdə iqtisadiyyat naziri Mikayıl Cabbarov deyib.**

Nazir bildirib ki, Heydər Əliyevin 1969-cu ildə ilk dəfə Azərbaycanın rəhbəri təyin olunduğu vaxtdan ölkəmizin tərəqqi və rifah yolu başladı. 1969-1982-ci illərdə həyata keçirilən sosial-iqtisadi proqramlar nəticəsində Azərbaycan sürətlə inkişaf etdi və Sovet İttifaqında qabaqcıl respublikalardan birinə çevrildi. Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xalqımız qarşısındakı ən böyük xidmətlərindən biri Azərbaycan dövlətçiliyinin xilası və ölkənin siyasi tarixində yeni bir mərhələnin açılmasıdır. Müstəqilliyin ilk illərində Azərbaycanın qarşılaşdığı ağır siyasi və iqtisadi problemlər, Ermənistanın hərbi təcavüzü mövcud vəziyyəti daha da çətinləşdirmişdi. Bu çətin dövrdə məhz Heydər Əliyevin göstərdiyi liderlik məharəti, strateji qərarları sayəsində Azərbaycanda güclü və müstəqil dövlət, səmərəli, davamlı inkişaf edən iqtisadiyyat və rifahlı, azad cəmiyyət formalaşmışdır.

Diqqətə çatdırılıb ki, Heydər Əliyev özünün zəngin iqtisadi bilik və təcrübəsi əsasında Azərbaycanın yeni dövr üçün iqtisadi inkişaf yolunu dəqiq müəyyənləşdirmişdi. Demokratik inkişaf yolunu seçmiş bütün ölkələrdə olduğu kimi, Azərbaycanda da bazar iqtisadiyyatı prinsipləri - xüsusi mülkiyyətçilik, azad sahibkarlıq fəaliyyəti, özəlləşdirmə, qeyri-neft sektorunun, sənayenin inkişafı və sosial infrastrukturun yeniləşdirilməsi prioritet seçildi. "Əsrin müqaviləsi"nin imzalanması isə Azərbaycan iqtisadiyyatında əsaslı dönüş yaratdı. Uzaqgörən neft strategiyasının uğurla həyata keçirilməsi ölkəmizin gələcək dayanıqlı inkişafının əsasını qoydu.

"Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin möhkəmləndirilməsi Ulu Öndərin diqqət yetirdiyi əsas məsələlərdən idi. 1992-ci ildən üzv olduğu BMT ilə əməkdaşlığın inkişaf etdirilməsində də Ümummilli Liderin BMT Baş Məclisindəki çıxışlarının böyük rolu olub. Heydər Əliyev çıxışlarında Azərbaycanın siyasi-iqtisadi vəziyyəti və dünya birliyinə münasibətdə siyasətinin prinsiplərini bəyan edib və Ermənistanın Azərbaycana qarşı təcavüzü haqqında geniş məlumat verərək bunun nəticəsində Azərbaycanın düşdüyü çox ağır vəziyyəti BMT üzvlərinə çatdırıb. Bununla yanaşı, Heydər Əliyevin iştirakı ilə Azərbaycan 2000-ci ilin sentyabrında BMT-nin əksər üzv ölkələri ilə birlikdə Nyu-Yorkda "Minilliyin Sammiti"ndə 2015-ci ilədək olan dövrdə dünyada insanların yaşayışında əhəmiyyətli müsbət dəyişikliklər yaratmaq üçün ümumi çərçivəni müəyyən edən Minilliyin Bəyannaməsini qəbul etmişdir. Bu bəyannamədə səkkiz qlobal Minilliyin İnkişaf Məqsədi (MİM) əks olunmuşdu. Ölkəmizdə MİM-lərə nail olunması məqsədilə kompleks tədbirləri əhatə edən "2003–2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı", "2008–2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf üzrə Dövlət Proqramı", regionların sosial-iqtisadi inkişafı istiqamətində 3 dövlət proqramı (2004-2008, 2009-2013 və 2014-2018-ci illər üzrə) qəbul olunmuşdur. Nəticədə Azərbaycan Minilliyin İnkişaf Məqsədləri üzrə bir çox hədəflər, xüsusilə yoxsulluğun azaldılması, təhsil səviyyəsinin yüksəldilməsi, gender bərabərliyi və ətraf mühitin qorunması sahəsində vəziyyətin yaxşılaşdırılması, uşaq və ana ölümü hallarının azaldılması, təhlükəli yoluxucu və digər xəstəliklərə qarşı mübarizənin gücləndirilməsi və tərəqqi naminə qlobal tərəfdaşlıqda iştirakın genişləndirilməsi üzrə mühüm nailiyyətlər əldə etmişdir",




- deyə nazir qeyd edib. Bildirilib ki, ən mühüm nəticə kimi, Azərbaycan Minilliyin İnkişaf Məqsədləri çərçivəsində yoxsulluğun yarıya qədər azaldılması öhdəliyini götürən 128 ölkə arasında bu öhdəliyi yerinə yetirən 18 ölkədən biri olmaqla yanaşı, dünyada yoxsulluğun 5 faizdən aşağı endirilməsinə nail olan 29 ölkə sırasında yer alıb. Ölkəmiz 2010-cu ildə "orta insan inkişafı" statusuna malik ölkələr qrupundan çıxaraq "yüksək insan inkişafı" kateqoriyasına daxil olub.

Minilliyin inkişaf bəyannaməsinin davamı olaraq Respublikamız 2015-ci ilin sentyabr ayında "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) qoşulmuşdur: "Dayanıqlı İnkişaf Məqsədlərinin icrası ölkədə uğurla davam etdirilir, biz artıq bu istiqamətdə dünyada 10 ölkədən biri, regionda ilk ölkə olaraq BMT-nin Yüksək Səviyyəli Siyasi Forumuna 3 hesabat təqdim etmişik, növbəti hesabatın gələn il təqdim olunması nəzərdə tutulur. DİM-lərin icrası eyni zamanda, bizim ölkəmiz üçün çox uğurlu bir tarixi dövrə təsadüf edir. Heydər Əliyevin müəyyən etdiyi strategiya üzrə Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə Vətən müharibəsi Zəfərlə başa çatdı və torpaqlarımız işğaldan azad olundu. Azad olunan Şuşada biz keçən ilin martında BMT ilə əməkdaşlığımızın 30 illiyini ən yüksək səviyyədə qeyd etdik".

**İqtisadiyyat naziri deyib:** "Şübhəsiz ki, yaxın gələcəkdə qarşımızda duran əsas məsələ işğaldan azad edilmiş ərazilərimizin bərpası ilə bağlıdır. Bu proses soydaşlarımızın əzəli torpaqlarımıza Böyük qayıdışı ilə üst-üstə düşür. Sahibkarlara və investorlara Qarabağda biznes qurmaqda dövlət tərəfindən zəruri dəstək təmin edilir, güzəşt və imtiyazlar verilir, mühüm infrastruktur layihələri həyata keçirilir. Ancaq azad edilmiş torpaqların reabilitasiyasına mane olan əsas məqam bu ərazilərin minalanmasıdır. Bu, sürətli reinteqrasiyaya əngəl törədir. Minatəmizləmə ilə bağlı Azərbaycanda fəaliyyət göstərən BMT Agentlikləri ilə bu istiqamətdə layihələrin icrasının daha da genişləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

Bu il martın 2-də Bakıda keçirilmiş Qoşulmama Hərəkatının COVID-19-a Qarşı Mübarizə üzrə Təmas Qrupunun Zirvə Görüşündə Prezident tərəfindən minatəmizləmə fəaliyyətinin 18-ci Dayanıqlı İnkişaf Məqsədi kimi BMT-nin 2030 Gündəliyinə əlavə edilməsi təşəbbüsü irəli sürülmüşdür. Artıq bu istiqamətdə İqtisadiyyat Nazirliyi tərəfindən aidiyyəti orqanlarla birlikdə milli, 18-ci Dayanıqlı İnkişaf Məqsədinin layihəsi hazırlanıb və Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasına təqdim edilib. Bu gün biz ərazi bütövlüyünü bərpa etmiş, güclü, dünyada nüfuzlu və etibarlı tərəfdaş ölkədə yaşayırıq. Ehtiramla yad etdiyimiz Ulu Öndər Heydər Əliyev məhz belə qüdrətli bir Azərbaycanı görmək arzusunda idi. Bugünkü uğurlarımızın əsasında Ulu Öndərin müstəsna xidmətləri dayanır. Ümummilli Liderin əziz xatirəsi hər birimizin qəlbində daim yaşayır və bundan sonra da əbədi olaraq yaşayacaqdır!"

### "Heydər Əliyevin ideyaları Azərbaycanın davamlı və keyfiyyətli inkişafının əsasıdır"




Bu fikirləri tədbirdə **Akademik Ziyad Səmədzadə** səsləndirib. O qeyd edib: "Azərbaycanın müstəqilliyinin ilk illərində başabəla islahatçıların professionallıqdan uzaq, reallığı nəzərə almayan addımları nəticəsində respublikamızın sosial-iqtisadi göstəricilər 70-ci illərdəki göstəricilərlə müqayisədə xeyli pisləşdi. 1993-cü ilin may-iyununda hökumət böhranının son dərəcə kəskinləşməsi nəticəsində Azərbaycanın müstəqilliyinin itirilməsi təhlükəsi yarandıqda xalqımızın tələbi ilə zəngin dövlətçilik təcrübəsinə malik olan Heydər Əliyev yenidən böyük siyasətə qayıtdı. O, Azərbaycanı ağır fəlakətdən qurtarmaq üçün Azərbaycanın dövlətimizin milli mənafelərinə uyğun inkişaf strategiyasını hazırladı.

Heydər Əliyev böhran vəziyyətində olan iqtisadiyyatı dirçəltmək və bununla da ölkənin müstəqilliyini qorumaq, iqtisadi təhlükəsizliyini təmin etmək üçün neft amilini ön plana çəkdi. Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü il 20 sentyabrda "Əsrin müqavilə"si imzalandı.

2002-ci ildə ümummilli lider Heydər Əliyevin davamlı səyləri, sözün əsl mənasında əzmkarlığı, qətiyyəti nəticəsində çoxlarının əfsanə hesab etdiyi əsas Bakı-Tbilisi-Ceyhan boru kəmərinin təməli qoyuldu. 2006-cı ildə Türkiyənin Ceyhan limanından Azərbaycan neftinin dünya bazarlarına nəqlinə başlanıldı. Azərbaycan "Əsrin müqavilə"-sinin davamı olan digər srtateji layihələrə da imza atdı.

Prezident İlham Əliyev bu möhtəşəm uğurlar barədə danışaraq demişdir: **"1993-cü ildə, o ağır, məşəqqətli günlərdə Ulu öndər ikinci dəfə hakimiyyətə gəlməsəydi və 1994-cü ildə "Əsrin müqaviləsi"** imzalanmasaydı, Azərbaycanın taleyi çox müəmmalı olacaqdı. Ancaq Heydər Əliyevin hakimiyyətə qayıdışı, 1994-cü il sentyabrın 20-də tarixi "Əsrin müqaviləsi"ni imzalaması ilə Azərbaycan müstəqilliyinin, bugünkü uğurlarının, dinamik inkişafının əsası qoyulmuş oldu". Beynəlxalq təşkilatlarla, o cümlədən BMT ilə əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində xeyli işlər görüldü.

Heydər Əliyev ciddi narahatlıq keçirirdi ki, əhalinin xeyli hissəsi işsizlik, yoxsulluq şəraitində yaşayır, doğma yurdlarından erməni millətçiləri tərəfindən qovulmuş azərbaycanlılıar ağır çətinliklərlə üzləşirlər. Yaranmış vəziyyətdən mühüm çıxış yolu kimi 2002-ci il oktyabrın 25-də BMT-nin dəstəyi ilə hazırlanmış "Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı" təsdiq olundu.

Görülmüş tədbirlər yoxsulluğun səviyyəsinin 1993-cü ildəki 80-85 faizdən 2001-ci ildə 2 dəfə azalmasını təmin etdi.

Prezident İlham Əliyev dövlət başçısı kimi fəaliyyətinin ilk günlərindən başlayaraq Ulu öndərin yoxsulluğun azaldılması ilə bağlı arzularının həyata keçirilməsi məqsədilə yeni iş yerlərinin yaradılması, əmək haqlarının artırılması, iqtisadi inkişafı sürətləndirmək üçün bütün imkanlardan istifadə edilməsinə xidmət edən tədbirlərin görülməsi hökumətin vacib vəzifəsi kimi qiymətləndirildi.

Ötən illər ərzində yoxsulluğun azaldılması istiqamətində birmənalı şəkildə qeyd etmək istərdim ki, fundamental işlər görüldü ki, bu da yoxsulluğun dəfələrlə aşağı salınmasını şərtləndirdi. 2022-ci ildə yoxsulluğun səviyyəsi 5% olmuşdu. Əlverişli demoqrafik şəraitə malik olan respublikamızda məşğulluğun artırılması, iqtisadiyyat sahələrinin elmi-texniki səviyyəsinin yüksəldilməsi, peşəkar kadrla təminatın yaxşılaşdırılması istiqamətində böyük işlər görülmüşdür ki, bütün bunlar da insan kapitalından daha səmərəli istifadə olunmasını təmin edəcəkdir".

### "BMT-Azərbaycan tərəfdaşlığı 30 ildən artıq müddətdə uğurla davam edir"

Bu fikri tədbirdə BMT-nin Qaçqınlar üzrə Ali Komissarının Azərbaycandakı Nümayəndəliyinin rəhbəri Bik Lum deyib. O, Heydər Əliyevin Azərbaycan-BMT münasibətlərinin inkişafında, ölkəmizin sosial-iqtisadi sferada əsas hədəflərinə nail olunmasında mühüm xidmətlərini vurğulayıb, BMT-Azərbaycan tərəfdaşlığının 30 ildən artıq müddətdə uğurla davam etdiyini bildirib.

Qeyd olunub ki, Minilliyin İnkişaf Məqsədlərinin icrasına böyük töhfə verən Heydər Əliyevin başladığı təşəbbüslər nəticəsində Azərbaycanda yoxsulluq səviyyəsi 49%-dan 5%-ə enmiş, ölkənin İnsan İnkişafı İndeksində göstəriciləri isə 30 faiz artmışdı. Bik Lum, həmçinin bildirib ki, hazırkı əməkdaşlıq çərçivəsini icra etmək və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün BMT Azərbaycanın bütün səylərini dəstəkləyəcək.

### "Ulu Öndər Heydər Əliyev Azərbaycan-BMT əlaqələrinin formalaşmasına və inkişafına olduqca qiymətli töhfə verib"

Bunu BMT-nin Əhali Fondunun (UNFPA) **Azərbaycandakı nümayəndəliyinin rəhbəri Fərid Babayev** "Azərbaycanda BMT-nin İnkişaf Təşəbbüslərinin həyata keçirilməsində Heydər Əliyevin rolu" mövzusunda tədbirdə deyib.

"Heydər Əliyevin hakimiyyəti dövründə BMT-nin inkişaf təşəbbüslərinin icrasının mühüm fəaliyyət istiqamətləri müəyyən edilib və Azərbaycanın dünya ölkələri ilə daha sıx əlaqələrinin qurulması, humanitar və iqtisadi sahələrdə inkişafı üçün tədbirlər həyata keçirilib. Heydər Əliyevin həmin dövrdə yenicə müstəqillik əldə etmiş ölkənin rəhbəri olaraq sosial siyasəti və onun rəhbərliyi altında başlamış inkişaf prosesləri sayəsində bu gün Azərbaycan bu və bir çox digər sosial-iqtisadi sahədə şübhəsiz parlaq inkişaf göstəriciləri nümayiş etdirir", - o deyib.



O, UNFPA-nın Azərbaycanda 30 ildən artıq fəaliyyət göstərən nümayəndəliyinin, həmçinin bu inkişafı dəstəklədiyini qeyd edib. "Azərbaycan hələ 1994-cü ilin sentyabrında əhali və demoqrafiya sahəsində ən nüfuzlu beynəlxalq platforma olan və Qahirədə keçirilən "Əhali və inkişaf" üzrə beynəlxalq konfransda iştirak edib. Konfransın nəticələrinə əsasən qəbul edilmiş sənəd BMT-nin Əhali Fondunun növbəti müddət üçün fəaliyyətini yönləndirən əsas çərçivə hesab olunur. Ötən təqribi 30 illik müddət ərzində UNFPA-nın Azərbaycanda fəaliyyəti geniş mənada milli kontekstdə, bu çərçivələrdən irəli gələn çağırışların həllində hökumətə köməklik göstərməkdən ibarət olub. Əhaliyə və onun strukturuna aid göstəricilər hər bir ölkənin təhlükəsizliyinin əsas elementlərini təşkil edir. Bu, həmçinin xalqın genefondunun qorunması, miqrasiya və demoqrafiya kimi məsələlərin həllində mühüm əhəmiyyət kəsb edir. Heydər Əliyevin rəhbərliyi dövründə qəbul edilmiş Azərbaycanın milli inkişaf konsepsiyasının əsasında məhz sosial faktor dayanır - qoyulmuş bütün məqsədlər və görülmüş tədbirlər son nəticədə əhalinin rifahı, sosial müdafiənin gücləndirilməsi, insan kapitalının inkişafı üçün əlverişli şərait yaradıb", - deyə o əlavə edib.

* * * *

**Konfransda BMT-nin Ölkə üzrə Rezident Əlaqələndiricisi xanım Vladanka Andreyeva, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri xanım Bahar Muradova, millət vəkili cənab Məzahir Əfəndiyev, Dövlət İdarəçilik Akademiyasının rektoru cənab Urxan Ələkbərov çıxış etmişlər.**

Konfransda müstəqillik əldə etdikdən sonra ümummilli liderin Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin möhkəmləndirilməsi istiqamətində atdığı addımlar, regional və qlobal enerji layihələrində ölkəmizi etibarlı tərəfdaş olaraq tanıtması, beynəlxalq təşkilatlarla, xüsusilə BMT-nin ixtisaslaşmış qurumları ilə əlaqələrin yaradılması və möhkəmləndirilməsi istiqamətində həyata keçirdiyi fəaliyyətlərə dair müzakirələr aparılmışdır.

# Geologiya və Geofizika İnstitutunda Elmi şuranın xüsusi iclası keçirilib










AR Elm və Təhsil Nazirliyinin Geologiya və Geofizika İnstitutunda (GGİ) Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş Elmi şuranın xüsusi iclası keçirilib.

***Tədbirdə AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, AMEA-nın vitse-prezidenti, akademik İbrahim Quliyev, AMEA-nın müşaviri, akademik Yaqub Mahmudov, Neft və Qaz İnstitutunun baş direktoru, akademik Fəxrəddin Qədirov, Respublika Seysmoloji Xidmət Mərkəzinin baş direktoru, AMEA-nın müxbir üzvü Qurban Yetirmişli, Milli Məclisin deputatı, akademik Ziyad Səmədzadə, Elmi şuranın üzvləri və aidiyyəti şəxslər iştirak ediblər.***

Əvvəlcə tədbir iştirakçıları Ulu Öndərin 100 illik yubileyi münasibətilə nümayiş etdirilən kitab və foto sərgisi ilə tanış olublar.

**İclası giriş sözü ilə Geologiya və Geofizika İnstitutunun baş direktoru, akademik Akif Əlizadə** açaraq, Ulu Öndərin hakimiyyəti dövrünü xarakterizə edən mühüm siyasi məqamları diqqətə çatdırıb. Natiq bildirib ki, iqtisadiyyatı inkişaf etdirib güclü dövlət quruculuğuna nail olmaq pinsipinə əsaslanan siyasət Ümummilli Liderin fəaliyyətinin əsas istiqamətlərindən idi. Akademik bildirib ki, uzaqgörən rəhbər gəncləri respublikadan kənarda nüfuzlu ali təhsil müəssisələrində təhsilə cəlb etməklə ölkənin hərtərəfli gələcək inkişafına töhfə verməyi nəzərdə tuturdu və bu, indi ölkə həyatımızda qürurla xatırlanır.

**Tədbirdə çıxış edən AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli** Ulu Öndər Heydər Əliyevin milli-mənəvi dəyərlər, ordu quruculuğu, elm və təhsil, yaradıcı insanlara qayğı, vətəndaş təəssübkeşliyi və digər istiqamətlərdə gördüyü əvəzolunmaz işlərdən söz açıb. Akademik vurğulayıb ki, Ulu Öndər Azərbaycanda yeni tarix yaratdı, qurduğu təməl pinsiplərlə aparılan fəaliyyətin yüksək nəticələri öz bəhrəsini daim göstərir. Onlardan yalnız biri - 44 günlük müharibədə qazanılan qələbə deyilənlərə bariz nümunədir.

AMEA rəhbəri çıxışında Elmlər Akademiyasının hazırda yeni təşkilatlanma prosesi yaşadığını da diqqətə çatdırıb.

Akademik İsa Həbibbəyli daha sonra **akademik Akif Əlizadəyə** ölkəmizdə elmin və təhsilin inkişafına verdiyi töhfələrə görə ***Azərbaycan Ağsaqqallar Şurasının "Fəxri Ağsaqqal" döş nişanını təqdim edib.***

**Sonra çıxış edən akademik Ziyad Səmədzadə** Heydər Əliyevin nəinki Azərbaycanın, eləcə də keçmiş SSRİ-ni iqtisadi həyatına və problemlərinə yaxından bələd olduğunu faktlarla təsvir edib, eyni zamanda onun strateji tədbirlərindən nümunələr gətirib. Z.Səmədzadə bildirib ki, 90-cı illərdə borcunu qaytarmağa imkanı olmayan Azərbaycan bu gün strateji valyuta ehtiyatına malikdir, həm də artıq borc verə bilən ölkə kimi tanınır.

**Akademik Yaqub Mahmudov** isə Heydər Əliyevin ölkəsinin, onun vətəndaşlarının daim təəssübkeşi olduğunu, millətlərin içində öz millətini tanıtmağa çalışdığını və bunu uğurla bacardığını deyib: ***"Ulu Öndərin ümumxalq etibarından başqa heç bir dayağı olmayıb. Ona görə də dahi şəxsiyyətin 100 illik yubileyi ümumxalq bayramı kimi qeyd olunur".***

İclasın sonunda Geologiya və Geofizika İnstitutunun Gənc Alim və Mütəxəssislər Şurasının sədri Zöhrab Əliyevin çıxışı dinlənilib və Heydər Əliyevin həyatı və fəaliyyəti haqqında video nümayiş etdirilib.

## Maliyyə Nazirliyində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi qeyd olunub




Mayın 10-da Azərbaycan Respublikası Maliyyə Nazirliyində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.

Nazirlikdən bildirilib ki, tədbiri giriş sözü ilə açan maliyyə naziri Samir Şərifov müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli dövlət xadimi Heydər Əliyevin xalqına, dövlətinə həsr etdiyi ömür yolundan, Vətən və xalq qarşısında tarixi xidmətlərindən bəhs edib, Ümummilli Lider Heydər Əliyevin həm SSRİ dönəmində, həm də müstəqillik illərində Azərbaycana rəhbərlik etdiyi illərin ölkəmizin tarixinə yüksəliş və inkişaf dövrü kimi yazıldığını deyib.

Qeyd olunub ki, Azərbaycan xalqı 90-cı illərdə, yeni dövrə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoydu. Məhz Heydər Əliyevin qətiyyəti, fədakarlığı və yorulmaz səyləri nəticəsində ölkədə ictimai-siyasi sabitlik bərqərar edildi, iqtisadi inkişafın əsası qoyuldu, 1994-cü ilin sentyabrında daxili və xarici təzyiqlərə baxmayaraq, "Əsrin müqaviləsi" imzalandı, ölkəyə xarici sərmayələr cəlb edildi, dövlət idarəçiliyi mexanizmi quruldu, nizami ordu yaradıldı və genişmiqyaslı siyasi, hüquqi, iqtisadi, sosial və mədəni islahatlar həyata keçirildi.

Ümummilli Liderin ən böyük arzusunun Qarabağın düşmən tapdağından azad edilməsi, ərazi bütövlüyümüzün bərpası olduğunu bildirən nazir onun bu müqəddəs vəsiyyətini layiqli siyasi varisi, Ali Baş Komandan İlham Əliyevin uğurla yerinə yetirdiyini, ərazi bütövlüyümüzün təmin edildiyini, üçrəngli bayrağımızın yenidən Vətən torpaqlarında, Qarabağın tacı olan Şuşada qürurla dalğalandığını diqqətə çatdırıb. Bildirilib ki, bu gün Heydər Əliyevin ideyalarını uğurla həyata keçirən Prezident İlham Əliyevin qətiyyətli liderliyi ilə Azərbaycan Respublikası siyasi sabitlik, iqtisadi güc, sosial rifah, tarix yazan güclü ordu, nüfuzlu və etibarlı tərəfdaş ölkə statusunda öz qüdrətli dövrünü yaşayır və bu, bir daha Heydər Əliyevin dövlətçilik məfkurəsinin bugünkü və gələcək inkişafımızın birbaşa təminatçısı olduğunu təsdiqləyir.

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasının üzvü, professor Şahlar Əsgərov Heydər Əliyevlə görüşlərindən danışıb, unudulmaz xatirələrini bölüşüb.

Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun şöbə müdiri, professor Mayis Əmrahov isə tarix yaradan şəxsiyyət kimi Ulu Öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi uzun illər ərzində Vətən və xalq qarşısında tarixi xidmətlərindən bəhs edib.

Tədbirin sonunda Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Əbədiyyətin ilk əsri. Heydər Əliyev 100" filmi nümayiş etdirilib.

## Dövlət büdcəsinə vergi daxilolmalarının həcmi 52,4 faiz artıb

Cari ilin yanvar-aprel aylarında Dövlət Vergi Xidməti xətti ilə dövlət büdcəsinə vergi daxilolmalarının həcmi 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 52,4 faiz artaraq 7 milyard 672,2 milyon manat təşkil edib.

Bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov məlumat verib.

Nazir qeyd edib ki, bu müddətdə qeyri-neft-qaz sektorundan vergi daxilolmaları ötən ilin eyni dövrü ilə müqayisədə 16,7 faiz artaraq 4 milyard 3,4 milyon manat olub. Vergi daxilolmalarının artımında "kölgə iqtisadiyyatı"nın miqyasının azaldılması, biznes fəaliyyətinin və gəlirlərin leqallaşdırılması istiqamətində atılan addımların əhəmiyyətli rolu var.




## Gömrük xətti ilə büdcə daxilolmaları 25%-ə qədər artıb



2023-cü ilin yanvar-aprel aylarında gömrük xətti ilə büdcə daxilolmaları əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 24.7% artaraq 2 milyard 46 milyon 681 min manata çatıb.

Bu barədə Dövlət Gömrük Komitəsi məlumat açıqlayıb.

Məlumata görə, gömrük rüsumları üzrə daxilolmalar 496 milyon 589 min manat (ötən ilin eyni dövrünə nisbətən 21% çox), əlavə dəyər vergisi (ƏDV) üzrə daxilolmalar 1 milyard 470 milyon 864 min manat (25.2% çox), aksizlər üzrə daxilolmalar 62 milyon 297 min manat (56.2% çox), yol vergisi üzrə daxilolmalar isə 17 milyon 30 min manat (1.5% çox) təşkil edib.

## Əmlak Məsələləri Dövlət Xidməti ötən il 74 mln. manat gəlir əldə edib

İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti (ƏMDX) ötən il 74 milyon 196.18 min manatlıq gəlir əldə edib. Bu barədə ƏMDX-nin 2022-ci ilin maliyyə fəaliyyətinin nəticələri haqqında hesabatında qeyd edilir. Hesabata görə, şirkət qeyri-birja əməliyyatlarından 62 milyon 559.46 min manat, birja əməliyyatlarından 11 milyon 502.78 min manat gəlir əldə edib. 2021-ci ildə cəmi gəlirlərin həcmi 96 milyon 157.49 min manat idi. Dövlət Xidmətinin xərclərinin həcmi də 7% azalaraq 65 milyon 31.95 min manat olub. Bunun 22 228.07 min manatı əməkhaqqı xərcləri təşkil edib.



# Добыча газа с месторождения «Абшерон» начнется в ближайшие месяцы

Вопрос ввода в эксплуатацию газового месторождения «Абшерон» обсудили президент Азербайджана Ильхам Алиев и президент по разведке и добыче компании «Total Energies» Николя Терраз.
В ходе встречи было отмечено успешное долгосрочное сотрудничество Total Energies с SOCAR, а также обсужден вопрос начала добычи в ближайшие месяцы с газового месторождения «Абшерон» на Каспии.
Терраз отметил, что Total Energies заинтересована в продолжении сотрудничества с Азербайджаном и сообщил о намерении компании расширить деятельность в стране. Разработкой месторождения «Абшерон» занимается Joint Absheron Petroleum Operating Company (JOCAP), учрежденная SOCAR Absheron (50%) и TOTAL E&P Absheron (50%). Контракт подписан сроком на 30 лет.
На первом этапе объем добычи составит 1,5 млрд кубометров в год.

# Капвложения в экономику Азербайджана выросли на 21%



Капитальные вложения в основной капитал в Азербайджане в январе-апреле 2023 года составили 4 млрд 580 млн манатов, что на 21,1% больше показателя 4 месяцев 2022 года, сообщили агентству «Интерфакс-Азербайджан» в Госкомитете по статистике. Капвложения в нефтегазовый сектор увеличились на 25,8%, в ненефтегазовый – на 18,5%, отметили в ведомстве.Из общего объема капвложений 2 млрд 620,2 млн манатов (57,2% всех инвестиций) направлено в объекты производственного значения, 1 млрд 702,5 млн манатов (37,2% всех инвестиций) - на строительство объектов сферы услуг, 257,3 млн. манатов (5,6% всех инвестиций) - на строительство жилья.
В январе-апреле объем иностранных инвестиций в основной капитал составил 1 млрд 236 млн манатов (27% всех инвестиций), внутренних инвестиций – 3 млрд 344 млн манатов (73% всех инвестиций). Из общего объема капвложений 71% или 3 млрд 252 млн манатов в отчетный период было направлено на строительно-монтажные работы. В 2022 году рост капвложений в основной капитал в Азербайджане составил 5,5%.

# Число космических спутников Азербайджана будет увеличено



об этом сказал председатель правления ОАО «Азеркосмос» (Космическое агентство Азербайджанской Республики) Самаддин Асадов во время обсуждения нового законопроекта о космической деятельности на сегодняшнем заседании комитета Милли Меджлиса по экономической политике, промышленности и предпринимательству.
Асадов отметил, что космическая деятельность не только служит национальным интересам Азербайджана, но и имеет коммерческие цели.
По его словам, все телеканалы Азербайджана и Грузии осуществляют вещание через азербайджанские спутники.
Он подчеркнул, что сегодня у Азербайджана нет зависимости от космических спутников зарубежных стран.

# Золото вернулось к снижению после данных об инфляции



Цены на золото, начавшие расти после выхода данных о замедлении инфляции в США, снова вернулись к снижению вечером в среду. Котировки июньских контрактов на золото на нью-йоркской бирже Comex к 20:30 по бакинскому времени понизились на 0,5%, до $2032,3 за тройскую унцию. Как сообщалось, потребительские цены (индекс CPI) в США в апреле выросли на 4,9% в годовом выражении после подъема на 5% в марте. Таким образом, инфляция достигла минимума с апреля 2021 года.
Апрельские данные об инфляции не подтверждают, что Федрезерв возьмет паузу в июне или июле, сказал глава отдела исследований в Insignia Consultants Чинтан Карнани.
«Трейдеры разочарованы, поскольку они не получили ясности относительно сроков снижения ставки и паузы в её повышении, поэтому они фиксируют прибыль», - добавил он.

# Существенно выросли налоговые поступления в госбюджет



В январе-апреле 2023 года налоговые поступления в государственный бюджет Азербайджана составили 7,672 миллиарда манатов. Об этом написал в Twitter министр экономики Азербайджана Микаил Джаббаров.
Налоговые поступления в госбюджет выросли на 52,4 процента по сравнению с аналогичным периодом 2022 года.
Министр отмечает, что в отчетный период поступления в ненефтегазовый сектор выросли на 16,7 процента и достигли 4,003 миллиарда манатов.
«Немаловажную роль в росте налоговых поступлений играют сокращение “теневой экономики”, предпринимаемые шаги по легализации деловой активности и доходов», - говорится в публикации.
Напомним, что в 2022 году налоговые поступления в государственный бюджет Азербайджана составили 15,541 миллиарда манатов (рост на 82,2 процента по сравнению с 2021 годом). В отчетный период поступления в ненефтегазовый сектор выросли на 27,9 процента - до 8,134 миллиарда манатов.

# МИД Азербайджана обвинил Армению в незаинтересованности в мирном процессе



Военные провокации Армении на фоне ожидаемых переговоров глав государств в Брюсселе свидетельствуют о незаинтересованности Еревана в мирном процессе, заявили в четверг в министерстве иностранных дел (МИД) Азербайджана.
«Тот факт, что провокации (военные – ИФ) Армении, как всегда, происходят на фоне интенсификации переговоров по мирному договору, а также ожидаемых переговоров между лидерами (14 мая в Брюсселе - ИФ), свидетельствует о том, что Армения не заинтересована в мирном процессе. Подобные действия Армении, наносящие ущерб переговорному процессу, должны быть отвергнуты и осуждены международным сообществом в строгой форме», - говорится в заявлении азербайджанского внешнеполитического ведомства.
Там заявили, что Армения наращивает военные провокации против Азербайджана в приграничных регионах.
В МИД отметили, что, согласно информации министерства обороны Азербайджана, «вечером 10 мая подразделения вооруженных сил Армении с позиций в зодском направлении Басаркечарского района подвергли интенсивному обстрелу позиции азербайджанской армии, в результате которого был тяжело ранен в голову военнослужащий сверхсрочной действительной военной службы азербайджанской армии».
«Несмотря на то, что Ереван предупреждали о том, чтобы с их стороны были прекращены провокации и целенаправленное обострение ситуации, с утра 11 мая вооруженные силы Армении еще больше обострили ситуацию, обстреляв позиции азербайджанской армии из минометов, в результате провокаций погиб один военнослужащий», продолжили во внешнеполитическом ведомстве.
Там добавили, что «Вооруженные силы Азербайджана принимают все необходимые ответные меры».
«Вся ответственность за преднамеренное обострение ситуации лежит на военно-политическом руководстве Армении», - заявили в МИД Азербайджана.

# Откуда Армения получила приказ о провокации? - Ереван увеличивает риск эскалации

Совершение Арменией военных провокаций показывает, что заявления Армении о мире - не что иное, как мыльный пузырь. Об этом сказал военный эксперт Адалят Вердиев.
«Армения никогда не была искренней в мирных переговорах, и на этот раз она так же, как и прежде, прибегла в преддверии переговоров 14 мая в Брюсселе к широкомасштабным провокациям. Для предотвращения этих провокаций азербайджанская сторона примет достаточно серьезные меры, и в результате адекватных ответных мер Армения в очередной раз будет поставлена на место. Совершение Арменией провокаций полностью ставит под сомнение мирные переговоры. Тот факт, что Никол Пашинян отправился в Москву и после возвращения собрал все военное руководство, может говорить и о том, что «заказ» на эти провокации поступил от внешних сил», - сказал Вердиев.
Отметим, что вечером 10 мая подразделения ВС Армении с позиций, расположенных в Басаркечарском районе в направлении Зод, осуществили провокацию, ведя интенсивный огонь из стрелкового оружия по позициям азербайджанской армии. В результате целенаправленного огня противника военнослужащий азербайджанской армии Махмудлу Муслим, получил тяжелое ранение в голову.
Пашинян считает «очень маленькой» вероятность подписания мирного договора с Азербайджаном в Брюсселе. Премьер-министр Армении Никол Пашинян на фоне обострившейся обстановки на армяно-азербайджанской границе подтвердил свою готовность к встрече с президентом Азербайджана Ильхамом Алиевым в Брюсселе 14 мая. «Мое решение поехать в Брюссель в воскресенье неизменно», - сказал Пашинян на заседании правительства в четверг. При этом он отметил, что вероятность подписания мирного соглашения с Азербайджаном в Брюсселе «очень маленькая».

# Bərdə rayonunda "Heydər Əliyev və Azərbaycanda pambıqçılığın inkişafı" mövzusunda konfrans keçirilib












***"Azərbaycan Sənaye Korporasiyası" ASC, Bərdə rayon İcra Hakimiyyəti və "Azərpambıq ASK" MMC-nin birgə təşkilatçılığı ilə keçirilən konfransda dövlət və hökumət rəsmiləri, yerli icra hakimiyyəti və ictimaiyyət nümayəndələri, o cümlədən fermerlər iştirak edib.***

Əvvəlcə tədbir iştirakçıları tərəfindən ümummilli lider Heydər Əliyevin Bərdə şəhər mərkəzində yerləşən abidəsi ziyarət edilib, önünə gül dəstələri qoyulub. Konfransın davamı olaraq iştirakçılar Mədəniyyət Mərkəzinin foyesində görkəmli şəxsiyyət Heydər Əliyevin və ölkə Prezidenti cənab İlham Əliyevin Azərbaycanda pambıqçılığın inkişafındakı müstəsna xidmətlərinə həsr olunmuş fotostendlə tanış olublar.

Tədbir Dövlət Himninin səsləndirilməsindən sonra Ümummilli Lider Heydər Əliyev və şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Konfrans **"Heydər Əliyev və Azərbaycanda pambıqçılığın tarixi"** adlı sənədli filmin nümayişi ilə davam edib.

**Tədbiri giriş sözü ilə açan Bərdə rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayev** ulu öndərin Azərbaycana rəhbərlik etdiyi hər iki dövrdən, onun yürütdüyü siyasi kursdan söz açıb, ölkəmizin sürətli və uzunmüddətli inkişafının, son onilliklər ərzində qazandığı uğurların ümummilli liderin adı ilə bağlı olduğunu vurğulayıb.

**"Azərbaycan Sənaye Korporasiyası"** ASC-nin Baş direktoru Kamran Nəbizadə ümummilli lider Heydər Əliyevin mənalı həyat yolundan və misilsiz xidmətlərindən danışıb. Baş direktor bildirib ki, Heydər Əliyevin 1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildikdən sonra kənd təsərrüfatını ölkənin inkişafında prioritet sahələrdən biri elan etməsi və aqrar sahədə, o cümlədən pambıqçılıqda həyata keçirdiyi islahatlar, verdiyi vacib qərarların nəticəsi olaraq ölkəmizdə pambıqçılığın sürətli inkişafı məhz ulu öndərin adı ilə bağlıdır. Qeyd edilib ki, ümummilli liderin mütəmadi olaraq rayonlara etdiyi səfərlər zamanı təsərrüfatla birbaşa yerindəcə tanış olması, zəhmətkeşlərlə keçirdiyi çoxsaylı səmimi görüşlər, bölgələrdə pambıqçılıq üzrə keçirilən ənənəvi zona müşavirələri kənd təsərrüfatının bu strateji sahəsində yeni inkişaf dövrünün başlanğıcı olub. Heydər Əliyev məktəbinin layiqli davamçısı, bütün sahələrdə uğurlara imza atan islahatçı lider Prezident İlham Əliyevin pambıqçılığın inkişafı ilə bağlı apardığı məqsədyönlü siyasətdən danışan **"Azərbaycan Sənaye Korporasiyası"** ASC-nin Baş direktoru Kamran Nəbizadə ölkə rəhbərinin birbaşa tapşırıq və göstərişlərinə əsasən aqrar sektorun bu sahəsinin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu vurğulayıb.

**Tədbirdə çıxış edən Azərbaycan Respublikası Milli Məclisinin deputatı Ziyad Səmədzadə** bildirib ki, müasir Azərbaycan dövlətinin qurucusu, memarı Heydər Əliyevin sayəsində ölkəmiz dünyada tanınan, inkişaf edən, çiçəklənən bir respublikadır.

Ziyad Səmədzadə qeyd edib ki, bu gün Azərbaycan Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyasının həyata keçməsi nəticəsində yeni inkişaf mərhələsinə qədəm qoyub. Buna görə də Heydər Əliyev əbədiyaşar bir liderdir.

**Sosialist Əməyi Qəhrəmanı, Prezident təqaüdçüsü Tərlan Musayeva** ulu öndər Heydər Əliyev ilə bağlı xatirələrini konfrans iştirakçıları ilə bölüşərək, görkəmli şəxsiyyətin hər zaman pambıqçılara olan diqqət və qayğısından danışıb.

Konfransın sonunda 2022-ci ildə istehsalatda fərqlənmiş pambıqçı fermerlərə **"Azərbaycan Sənaye Korporasiyası" ASC-nin Baş direktoru Kamran Nəbizadə,** Bərdə rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayev, Azərbaycan Respublikası Milli Məclisinin deputatı Ziyad Səmədzadə və Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Aparat rəhbəri cənab Rafail Quliyev tərəfindən Fəxri Fərmanlar təqdim olunub.

# Şuşada unudulmaz günlər: "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı








***Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 9-11 may tarixlərində Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı keçirilib. Festivalın proqramına uyğun olaraq səhər saatlarında tamaşaların, iştirakçı ölkələrin sənətkarlıq nümunələrinin və milli mətbəxinin təqdimatı olub.***

"Qarabağ" otelinin qarşısında təşkil olunan tədbirdə altı türk dövlətinin mətbəx və sənətkarlıq nümunələri sərgilənib.

Dövlət rəsmilərinin, respublikanın tanınmış mədəniyyət, incəsənət və elm xadimlərinin ziyarət etdikləri təqdimat hər kəsdə xoş təəssürat yaradıb. Əməkdar artist Emil Əfrasiyab Şuşada ilk dəfə olmaqdan məmnunluq duyduğunu ifadə edib: ***"İlk dəfədir ki, Azərbaycanın dilbər guşəsi, mədəniyyət paytaxtımız Şuşadayam. Çox unudulmaz hisslər keçirirəm. Sanki yuxudayam. Bu günləri bizlərə, Azərbaycan xalqına yaşatdığı üçün Prezident İlham Əliyevə dərin təşəkkürümü bildirirəm".***

Şuşaya dördüncü dəfədir gəldiyini söyləyən Xalq artisti Ənvər Sadıqov hamı kimi gözəl əhval-ruhiyyədə olduğunu qeyd edib: ***"Hər dəfə elə bilirəm ki, bu müqəddəs torpağa ilk dəfə ayaq basıram. Bu Qələbəni bizlərə yaşadan Müzəffər Ali Baş Komandana və rəşadətli Ordumuza minnətdarıq. Çox qürurluyam ki, bu gün Şuşadayam, belə möhtəşəm bir konsertdə iştirak edirəm".***

Türkiyəli aşpaz Ahmet Yetimova da Azərbaycanda olmaqdan qürur hissi keçirdiyini deyib. ***"Şuşaya gəldikdən sonra çox duyğulandım. Azərbaycan bizim ana Vətənimizdir. Bu torpaqların işğaldan azad olunması bizlərə də qürur hissi yaşatdı. Türk xalqlarının təamlarının və sənətkarlıq məhsullarının festival çərçivəsində nümayiş olunması bir ayrı gözəllikdir",*** - deyə türk qonaq bildirib.

Sonra Xan qızı Natəvanın evinin həyətində "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı çərçivəsində Şuşa Dövlət Musiqili Dram Teatrının hazırladığı "Dəli Domrul" tamaşasının premyerası olub. Qeyd edək ki, Festival günlərində müxtəlif məkanlarda "Bayraq", "Qəhrəmanlıq", "Qarabağ məclisi", "Poeziya", "Dədə Qorqud", "Dərvişlər", "Molla Nəsrəddin" mövzularında guşələr də yaradılıb. Bu guşələrdə müxtəlif bədii təqdimatlar, tamaşalar göstərilib. Eləcə də Cıdır düzü, Üzeyir Hacıbəylinin heykəlinin qarşısı, Bülbülün ev-muzeyi və Şuşanın digər məkanlarında keçiriləcək tədbirlər çərçivəsində müxtəlif konsert proqramları, sərgilər və film nümayişləri olub.

* * *

Şuşada təşkil olunan "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı çərçivəsində mayın 9-da Cıdır düzündə konsert proqramı təqdim edilib. Möhtəşəm konsertdə Azərbaycanla yanaşı, Qazaxıstan, Qırğızıstan, Macarıstan, Moldova Respublikasının Qaqauziya Muxtar Ərazi Qurumu (Qaqauz Yeri), Özbəkistan, eləcə də Özbəkistanın Qaraqalpaqıstan Muxtar Respublikası, Rusiya Federasiyasının Altay, Xakasiya, Saxa (Yakutiya), Tatarıstan, Tıva respublikaları, Şimali Kipr Türk Cümhuriyyəti, Türkiyə, Türkmənistandan olan musiqi kollektivlərinin və ifaçıların çıxışları maraqla qarşılanıb. Sonda Türk dünyasının solistləri birlikdə "Qarabağ" kompozisiyasını ifa ediblər.

Konsertdən sonra festivalla bağlı təəssüratlarını AZƏRTAC ilə bölüşən tanınmış bəstəkar, Üzeyir Hacıbəylinin ev-muzeyinin direktoru, Xalq artisti Sərdar Fərəcov deyib ki, hər zamankı kimi, budəfəki "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı da əsl musiqi bayramıdır: ***"Festival çox yüksək səviyyədə təşkil olunub. Burada gözəl ifalara qulaq asır, bir-birindən rəngarəng musiqiləri dinləyirik. Biz bu gün çox qürurluyuq. Ona görə ki, doğma Vətənimizə, gözəl Şuşamıza demək olar ki, bütün türk dünyasının ən ünlü sənətkarları qonaq gəlib. Yaşadığım hissləri sözlə ifadə etməkdə çətinlik çəkirəm. Qarşıda bizi bir-birindən maraqlı neçə-neçə konsert, tədbir gözləyir".***

Azərbaycan xalqına sonsuz sevgisini bildirən Qırğızıstanın Xalq artisti, Dövlət mükafatı laureatı Salamat Sadıqova 30 il bundan əvvəl Şuşada iştirak etdiyi "Xarıbülbül" festivalını bir daha xatırlayıb: "O günlər yaxşı yadımdadır. "Xarıbülbül" festivalı hələ ilk addımlarını atmağa başlayanda - 1990-cı illərin əvvəllərində biz bu musiqi bayramına qatılan ilk iştirakçılardan idik. Onda festival yeni beynəlxalq status almışdı. 30 ildən sonra yenidən Bakını görmək, Şuşaya gəlmək və belə bir festivala yenidən qatılmaq olduqca xoş hisslərdir. 33 il bundan əvvəl olduğu kimi, yenə də mən festivala öz doğma - "Kambarkan" folklor-etnoqrafik ansamblı ilə qatılmışam. İnanıram ki, yaxın illərdə bu festivalın coğrafiyası daha da genişlənəcək".

* * *

***"Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının mayın 10-da Cıdır düzündə qala-konserti olub. Konsert çərçivəsində "Xarıbülbül" kompozisiyası, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Türkiyə və Türkmənistan incəsənət ustalarının təqdimatında "Söz meydanı" vokal-instrumental kompozisiya, "Türk dünyası virtuozları" ansamblının ifasında "Çahargah bəhsi", "Əfsanə Turan", "Xalq xəzinəsi" kompozisiyaları və iştirakçı ölkələrin ifaları, rəqs qruplarının digər rəngarəng çıxışları təqdim edilib.***

Qala-konsert bütün iştirakçıların ifasında "Odlar yurdu Azərbaycan" kompozisiyası ilə başa çatıb.

Maraqla qarşılanan konsert proqramından sonra Xalq artisti Hacı İsmayılov təəssüratlarını bölüşüb: ***"Hər dəfə Şuşada, Cıdır düzündə olanda elə bilirəm bu yerlərə ilk dəfə gəlirəm. Azərbaycanın mədəniyyət paytaxtı Şuşada təşkil olunan "Xarıbülbül" Beynəlxalq Musiqi festivallarında 3-cü dəfədir iştirak edirəm. Hər il burada rəngarəng konsert proqramı ilə yanaşı, təbiətin də qəribəliyinin, fərqliliyinin şahidi oluruq. Bu festivallar Azərbaycan xalqının yüksək mədəniyyətindən xəbər verir. Yüksək mədəniyyətə malik olan xalqlar daim inkişaf edəcək və yaşayacaq".***

Özbəkistanlı müğənni Gülçöhrə Ruzukulova ilk dəfədir ölkəmizdə olduğunu bildirərək deyib: ***"Belə bir gözəl, unudulmaz festivalda iştirakdan çox məmnunam. Çox gözəl və həyəcanlı atmosfer var. Şuşa kimi cənnət bir guşədə türkdilli xalqların bir yerdə öz mədəniyyətini, incəsənətini təqdim etməsi olduqca qürurvericidir".***

Xatırladaq ki, Şuşa şəhəri 2023-cü ildə həm də Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) tərəfindən "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilib. Elə budəfəki "Xarıbülbül" Festivalında da TÜRKSOY-a daxil olan ölkələr, regionun türkdilli ölkələri və xalqlarının yaradıcı kollektivləri iştirak ediblər.

Festivalın tədbirləri Cıdır düzü, Üzeyir Hacıbəylinin heykəlinin qarşısı, Bülbülün ev-muzeyi və Şuşanın digər məkanlarını əhatə edir.

*Qarabağın görkəmli simaları*

# İlyas Əfəndiyev 1914-1996

***Azərbaycanın xalq yazıçısı, Dövlət mükafatı laureatı, görkəmli nasir, dramaturq İlyas Məhəmməd oğlu Əfəndiyev 1914-cü il may ayının 26-da Qaryagin rayonunun (indiki Füzuli rayonu) hal-hazırki Saracıq kəndində tanınmış və hörmətli tacir ailəsində anadan olmuşdur. O, 7-8 yaşlarında olarkən atası vəfat etmiş, anası bütün ömrünü övladlarını boya-başa çatdırmağa sərf etmişdir.***



Əfəndiyevlər ailəsi 30-cu illərdə ciddi təqiblərə məruz qalmış, onların ata-baba mülkü əllərindən alınmış, ailənin bəzi üzvləri "xalq düşməni" kimi güllələnmiş, bəziləri həbs edilərək vətəndən uzaqlara sürgün olunmuşdur.

Bir çoxları kimi İlyasın da uşaqlıq illərinin müəyyən hissəsi Şuşada keçdiyindən yazıçının yaradıcılığında Şuşa və Qarabağ mövzusu mühüm yer tutur.

***Yazıçı hələ uşaq yaşlarından zəhmətə alışmış, məktəbə getməzdən əvvəl yazıb-oxumağı öyrənmiş, çoxlu kitablar mütaliə etmişdir. 1921-ci ildə birinci sinifə gedən İlyas 1930-cu ildə pedaqoji təmayüllü iki dərəcəli orta məktəbi əla qiymətlərlə bitirmişdir.***

Yazıçının formalaşıb yetkinləşməsinə, bir sənətkar kimi püxtələşməsinə oxuduğu və dərs dediyi məktəbin kollektivi, boya-başa çatdığı bölgənin ictimai-mədəni mühiti, gənclik illərində böyük həvəslə izlədiyi və maraqla mütaliə etdiyi "Qızıl Araz" adlı rayon qəzeti, Füzulidə fəaliyyət göstərən xalq teatrı, ali təhsil aldığı institut həyatı, işlədiyi "Yeni yol", "Kommunist" və "Ədəbiyyat qəzeti" redaksiyaları və ən nəhayət Bakı ədəbi mühiti, Yazıçılar İttifaqı çox böyük təsir göstərmişdir.

Orta məktəbi bitirdikdən sonra bir müddət Böyük Bəhmənli kəndində dil və ədəbiyyatdan dərs deyən İ.Əfəndiyev 1935–1938-ci illərdə Qaryagin şəhər orta məktəbində coğrafiya müəllimi işləmiş, eyni zamanda gənclərin təlim-tərbiyəsində, məktəbyaşlı uşaqların təhsilə cəlb olunmasında fəallıq göstərmişdir.

Əfəndiyev orta məktəbi bitirdikdən sonra, ailə vəziyyətilə əlaqədar olaraq, təhsilində bir neçə il fasilə verməyə məcbur olur, lakin ali təhsil almaq və Bakıya getmək arzusu onu tərk etmirdi. O. Qaryagin rayonunun Böyük Bəhmənli kəndində müəllim işlədikdən sonra Xalq Maarif Komissarlığı tərəfindən Nuxa şəhərindəki nümunəvi orta məktəbə tədris hissəsi müdiri vəzifəsinə təyin olunur. Bir il burada işlədikdən sonra ali təhsil almaq üçün Bakıya – Azərbaycan Dövlət Pedaqoji İnstitutuna göndərilir. 1934-cü ildə APİ-nin ədəbiyyat şöbəsinə daxil olsa da, onun ali məktəbdə təhsil alması çox uzun sürmür; elə həmin il "kulak" balası olduğu üçün institutdan uzaqlaşdırılmışdı. Xoşbəxtlikdən İ.Əfəndiyevin adı həmin illərdə repressiya olunanların siyahılarında olmayıb. O, 1938-ci ildə APİ-nin coğrafiya fakültəsinin qiyabi şöbəsini bitirib, rayona qayıdaraq müəllimliyini davam etdirmişdir.

Respublikanın ən böyük ali məktəblərindən biri hesab edilən Azərbaycan Dövlət Pedaqoji İnstitutunda təhsil aldığı illər İ.Əfəndiyevin həyat və yaradıcılığında mühüm bir mərhələ təşkil edir. Ən tanınmış alimlərin və müəllimlərin dərs dediyi həmin ali məktəbdə İ.Əfəndiyev Bəkir Çobanzadə, Əli Sultanlı və s. kimi müəllimlərdən dərs almışdır.

Məhz 30-cu illərin sonlarında İ.Əfəndiyev ədəbiyyata gəlmiş və bir-birinin ardınca hekayələr yazmağa başlamışdır. Sonralar "Kənddən məktublar" adı ilə çap olunan həmin hekayələri götürüb 1938-ci ilin yayında Bakıya gəlmişdir.

Həmin ilin axırlarından İlyas Əfəndiyev Bakıda "Yeni yol", "Kommunist" və "Ədəbiyyat qəzeti" redaksiyalarında işləmişdir. Onun ilk mətbu əsəri olan "Buruqlar arasında" oçerki 1938-ci ildə, eləcə də "Berlində bir gecə" adlı ilk hekayəsi "Ədəbiyyat qəzeti"ndə 1939-cu ildə dərc olunmuşdur. Həmin il nəşr edilmiş "Kənddən məktublar" kitabı müəllifinə "ədəbiyyat dünyası"na çıxmaq səlahiyyəti vermişdir.

O, 1943-cü ildə Mehdi Hüseynlə birlikdə ilk dram əsəri olan "İntizar" pyesini yazmış, 40-cı illərinin sonunda o, artıq özünü nasir və dramaturq kimi tanıtmış, əsərləri haqqında mətbuatda yazılar dərc olunmuşdur.

XX əsr Azərbaycan ədəbiyyatının əvəzolunmaz simalarından biri kimi tarixə düşmüş İlyas Əfəndiyevin zəngin nəsrinə "Söyüdlü arx", "Körpüsalanlar", "Dağlar arxasında üç dost", "Sarıköynəklə Valehin nağılı", "Geriyə baxma, qoca", "Üçatılan" və digər roman və povestləri, dramaturgiyasına "İşıqlı yollar", "Bahar suları", "Atayevlər ailəsi", "Sən həmişə mənimləsən", "Mənim günahım", "Unuda bilmirəm", "Məhv olmuş gündəliklər", "Qəribə oğlan", "Mahnı dağlarda qaldı", "Bağlardan gələn səs" və başqaları daxildir. Qətiyyətlə demək olar ki, 60-cı illərdə səhnəyə gələn gənclərin püxtələşməsində İlyas Əfəndiyevin zəngin dramaturgiyasının böyük rolu olmuşdur.

Altmış ildən çox yaradıcılıq yolu keçmiş görkəmli sənətkar 90-cı illərdə də məhsuldar bir yazıçı kimi yazıb-yaratmış, sovet rejimi illərində deyə və yaza bilmədiyi bir sıra mövzuları yeni zamanın kontekstində oxuculara təqdim etmişdir. O, "Hacı Axundun cənnət bağı necə oldu" hekayəsini, "Xan qızı Gülsənubərlə tarzən Sadıqcanın nağılı" povestini dərc etdirmiş, "Tənha iydə ağacı", "Dəlilər və ağıllılar", "Hökmdar və qızı" və digər pyeslərini tamaşaya qoydurmuş, bir sıra yeni kitablarını nəşr etdirmişdir.

1990-cı ildə İstanbul və Ankara səhnələrində "Bizim qəribə taleyimiz" və "Sevgililərin cəhənnəmdə vüsalı" müvəffəqiyyətlə oynanılmış, bu əsərlər haqqında Türkiyə mətbuatı onlarla sanballı məqalələr vermişdir.

Sənətkarın yaradıcılığında Qarabağ mövzusu da əsas yer tutmuşdur. O, namərd qonşularımızın ötən əsrin 90-cı illərindən başlayan xəyanətkarlıqlarını, işğalçılıq hərəkətlərini dərin narahatlıq, vətəndaş yanğısı ilə izləmiş, əsərlərində Qarabağın qədim tarixini əks etdirmişdir.

Zəngin yaradıcılıq yolu keçmiş böyük sənətkar İlyas Əfəndiyev 1996-cı il oktyabrın 3-də Bakı şəhərində dünyasını dəyişmiş və Fəxri xiyabanda dəfn olunmuşdur.

# Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş təntənəli tədbir keçirilib



8 may 2023-cü il tarixində Mərkəzi Gömrük Hospitalında Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş təntənəli tədbir keçirilib. Tədbirdə Azərbaycan Respublikası Tibbi Xidmət İdarəsinin rəisi Ceyhun Məmmədov, Tibbi Xidmət İdarəsinin rəis müavinləri Şahlar Mirqasım, İsmayıl Əfəndiyev, Fərid Əbilov, Mərkəzi Gömrük Hospitalının baş həkimi Bəxtiyar Musayev, tibb personalı, əməkdaşlar, rezidentlər və könüllü gömrükçülər iştirak ediblər.

Tədbir Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə öz işinə başlayıb. Tədbiri giriş sözü ilə açan Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin rəisi, t.ü.f.d., Əməkdar həkim, tibb xidməti general-mayoru Ceyhun Məmmədov tədbir iştirakçılarını salamlayaraq, müasir Azərbaycanın memarı və qurucusu, Ümummilli Lider Heydər Əliyevin xatirəsini 1 dəqiqəlik sükutla yad etməyə çağırıb.

Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi Ceyhun Məmmədov çıxışında Azərbaycan tarixinin 1960-cı illərin sonundan başlayaraq otuz ildən artıq bir dövrünün Ulu Öndərin adı ilə bağlı olduğunu bildirib. C.Məmmədov qeyd edib: "Həm respublikaya birinci dəfə rəhbərlik etdiyi 1969–1982-ci illərdə, həm SSRİ-nin ali hakimiyyət orqanlarında təmsil olunduğu dövrdə, həm də müstəqil Azərbaycanın Prezidenti kimi Heydər Əliyev öz fəaliyyətində həmişə Vətənimizin ictimai–siyasi, sosial–iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəlişə xidmət edib, onun tərəqqisi üçün var qüvvəsi ilə çalışıb. Azərbaycanın ən çətin günlərində məsuliyyəti öz üzərinə götürüb, onu bir dövlət kimi tarixin ağır və sərt sınaqlarından çıxararaq bugünkü gerçəkliyinin və işıqlı sabahının möhkəm təməlini yaradıb."



Çıxışı zaman Ulu öndər Heydər Əliyevin səhiyyə sistemi ilə yanaşı, gömrük sisteminin yaradılması və inkişafı istiqamətində olan xidmətlərini də xüsusi vurğulayan C.Məmmədov bu gün bütün sahələrdə təməli Ümumilli Lider tərəfindən qoyulmuş siyasətin möhtərəm cənab Prezident İlham Əliyev tərəfindən layiqincə, uğurla, əzm və peşəkarlıqla davam etdirildiyini qeyd edib.

Daha sonra Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətinə həsr edilmiş videoçarx təqdim olunub. Həmçinin, tədbirdə Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi Tədris Mərkəzinin mütəxəssisi Şəhla Mirzəzadə "Heydər Əliyev və gənclər siyasəti", Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi Dilarə Zamanova "Heydər Əliyev və gömrük xidməti", Mərkəzi Gömrük Hospitalının Uşaq Cərrahiyyəsi şöbəsinin rəisi, uşaq cərrahı Vüsal Cəfərov "Əliyev və Azərbaycan səhiyyəsi" mövzusunda və tibb bacısı Nigar Maqsudova "Heydər Əliyev və tibb bacısı məktəbinin inkişafı" mövzusunda çıxış ediblər. Ulu Öndər Heydər Əliyevin çoxşaxəli fəaliyyətindən, Azərbaycanın inkişafı və milli dövlətçiliyin gücləndirilməsi istiqamətində misilsiz tarixi xidmətlərindən və böyük xilaskarlıq missiyasından danışıblar.

**Dilarə Zamanova,**
**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**

# WhatsApp çoxdan gözlənilən funksiyanı tətbiq edib

Androiddə WhatsAppın son beta versiyalarında bir akkauntın eyni zamanda bir neçə smartfondan istifadə edilməsi imkanı yaranıb. Bundan əvvəl oxşar funksiya yalnız Android idarə olunması ilə smartfon və planşetin bağlantısı üçün mövcud olub.

Belə ki, Android üçün WhatsAppın 2.23.8.2 saylı və daha yüksək beta versiyalarını endirərək, istifadəçi əsas akkaunta ikinci smartfonundan giriş edə bilər. Bunun üçün ikinci cihazda nömrənin qeydiyyatı səhifəsində ekranın sağ yuxarı küncündə üç nöqtəyə basmaq və "Mövcud akkauntla əlaqələndirmək" bəndini seçmək lazımdır. Daha sonra əsas smartfonu götürüb WhatsAppın əsas səhifəsində üç nöqtəyə basaraq "Əlaqələndirilmiş cihazlar" bölməsini seçmək, ardından ikinci smartfonda görünən QR-kodu skanlaşdırmaq lazımdır.

Beləliklə, istifadəçilər Android idarə olunması ilə mövcud akkauntlarına, eyni zamanda bir neçə cihazdan, o cümlədən PK, planşet və ikinci smartfondan giriş edə bilərlər.




Bu yenilik hələ ki, yalnız Androiddə WhatsAppın beta-versiyasında tətbiq olunub. Sabit quraşdırılmada və Apple cihazlarında yeni funksiyanın peyda olunması barədə hələ ki, məlumat verilmir.

# Azərbaycanın turizm imkanları BƏƏ-də nümayiş etdirilir




Azərbaycan Turizm Bürosu mayın 1-dən 4-dək Birləşmiş Ərəb Əmirliklərində keçirilən "ATM Dubai 2023" (Arabian Travel Market 2023) beynəlxalq turizm və səyahət sərgisində milli stendlə təmsil olunur.

Dövlət Turizm Agentliyindən AZƏRTAC-a bildirilib ki, sərgidə Azərbaycan Turizm Bürosu ilə yanaşı, "Azərbaycan Hava Yolları" QSC və ümumilikdə 31 yerli turizm və qonaqpərvərlik sənayesi nümayəndəsi iştirak edir. Ziyarətçilərə Azərbaycanın tarixi, adət-ənənələri, mədəni irsi, milli mətbəx nümunələri, sağlamlıq və ekoturizm potensialı haqqında ətraflı məlumat verilir.

Sərgi çərçivəsində BƏƏ-ni, həmçinin digər regional ölkələri təmsil edən turizm şirkətləri ilə B2B formatlı görüşlər keçirilir, qarşılıqlı əməkdaşlıq imkanları müzakirə olunur.

Sərginin ilk günü Dubay şəhərində Azərbaycan Respublikasının Baş konsulu Cavidan Hüseynov ölkə stendini ziyarət edib, sərgilənən turizm məhsulları ilə tanış olub.

Səfər çərçivəsində Azərbaycan Turizm Bürosunun Baş icraçı direktoru Florian Zenqstşmid Səudiyyə Ərəbistanının aviaşirkəti "Flyadeal"in Baş icraçı direktoru Con Korfiatislə görüşüb.

Görüş zamanı əməkdaşlıq əlaqələri, qarşılıqlı turist axınına təkan verəcək marketinq və kommunikasiya istiqamətlərində birgə fəaliyyət, yay aylarında həyata keçiriləcək birbaşa uçuşlar və digər məsələlər müzakirə olunub.

Qeyd edək ki, 2022-ci ildə Birləşmiş Ərəb Əmirlikləri Azərbaycana səfər edən vətəndaşlarının sayı ilə Körfəz ölkələrindən ziyarət edənlər sırasında ikinci pillədə qərarlaşıb. Ötən il Yaxın Şərq ölkələrindən Azərbaycana 228 min 294 xarici vətəndaş səfər edib ki, bunun da 18 faizini BƏƏ vətəndaşları təşkil edib.




**Azəri Light və Brent markalı neftin bir barelinin 3-11 may tarixlərində birja qiyməti, ABŞ dolları ilə (ICE birjası)**

**İqtisadçı ekspert Maqsud Quliyev**

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Bəyalı Ataşov, Zahid Məmmədov, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev**

**www.iqtisadiyyat.com**

**Redaksiyanın ünvanı: Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: +99412 566 09 60**
**Faks: +99412 514 14 27**
**Mühasibatlıq: +99412 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500**